# Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) “Neftqaztikinti” tresti 3500 ton 530x12mm pl.3sp5, QOST 10704-91 borunun satın alınması üçün açıq müsabiqə elan edir.

Müsabiqədə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıda qeyd olunan sənədləri SOCAR-ın “Neftqaztikinti” trestinə təqdim etməlidirlər:

- Müsabiqədə iştirak haqqında müraciət;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

Müsabiqədə iştirak haqqında müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 26.02.2016-cı il, Bakı vaxtı ilə saat: 18:00-a qədər təqdim olunmalıdır.

Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 09.03.2016-cı il, Bakı vaxtı ilə saat: 15.00-a qədər əlaqələndirici şəxsin ünvanına göndərilməli və ya bilavasitə əlaqələndirici şəxsə təqdim olunmalıdır.

Müsabiqə təklifi iddiaçı tərəfindən lazımi formada hazırlanmalı, imzalanmalı, möhürlənməli, əsli və surətləri hər biri ilk növbədə ayrı-ayrı zərflərə qoyulmalı, sonra bu zərflər ümumi bir zərfə qoyulmalıdır. Zərflərin bağlanmış tərəfləri iddiaçı tərəfindən imzalanmış və möhürlənmiş olmalıdır.

Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər 500 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə digər valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən ala bilərlər. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hesab nömrəsi: AZ38IBAZ38010019449306332120, VÖEN: 9900003871, Azərbaycan Beynəlxalq Bankı ASC, Müştəri xidməti Departamenti, Kod: 805250, müxbir hesab: AZ03NABZ01350100000000002944, VÖEN: 9900001881, SWIFT BIK: İBAZAZ2X.

Əlaqələndirici şəxs: Rəhimov Vaqif Zübeir oğlu
Ünvan: Bakı şəhəri, Xətai rayonu, Zığ yolu, 2922 saylı məhəllə.
Telefon nömrəsi: +994 12 521-24-12
Faks nömrəsi: +994 12 521-07-67
Elektron ünvan: Vagif.Rahimov@socar.az

Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

Satınalma müqaviləsini yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Müsabiqə təkliflərinin qiymətləndirilməsində keyfiyyət, ödəniş şərti və ən aşağı qiymət meyarlarına üstünlük veriləcəkdir.

Müsabiqə təklifləri zərfləri 09.03.2016-cı il, Bakı vaxtı ilə saat 16:00-da, Bakı şəhəri, Xətai rayonu, Zığ yolu, 2922 saylı ünvanda, “Neftqaztikinti” trestinin akt zalında açılacaqdır. İddiaçılar və ya onların səlahiyyətli nümayəndələri etibarnamə təqdim etməklə zərflərin açılış prosedurlarında iştirak edə bilərlər.

**SOCAR-ın “Neftqaztikinti” trestinin Satınalmalar qrupu**